



*Vətən bölünməzdir!*

# LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 07-08 (8545 ) ◉Çərşənbə, 15 may 2024-cü il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉Qiyməti 50 qəpik

## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri Xiyabanda məzarını ziyarət ediblər






Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri Xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdi. Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Lənkəranda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd olunub

Mayın 10-da Lənkəran şəhərində yerləşən Heydər Əliyev parkında Azərbaycan xalqının xilaskarı, Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub və önünə gül dəstələri qoyulub.

Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, ŞİH başçısı aparatının, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhid ailələri və qazilər, idarə və müəssisə kollektivləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Azərbaycan Xalqının Ümummilli Llideri Heydər Əliyevə xalq sevgisinin nəticəsi kimi qədirbilən lənkəranlılar Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək üçün abidəni ziyarət edərək, önünə gül dəstələri qoyub, Azərbaycanın dahi şəxsiyyətinin əziz xatirəsinə hörmət və ehtiramlarını bir daha bildiriblər. Xalqın böyük oğlunun doğum gününü qeyd etməyə gələnlərin ziyarətini Ulu Öndərimizin lənkəranlılar üçün daim yaşayacağının, heç vaxt yaddaşlardan silinməyəcəyinin sübutu hesab etmək olar.

Gün ərzində ictimaiyyət tərəfindən Ulu Öndərin abidəsinin və Heydər Əliyev muzeyinin ziyarəti davam etdirilib.



# ƏBƏDİYAŞAR LİDER

## “Heydər Əliyev və Azərbaycan təbiəti”



Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatı ”Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ”Heydər Əliyev və Azərbaycan təbiəti” adlı tədbir keçirib.

Tədbirdə çıxış edən rayon təşkilatının sədri İqbal Əmənullayev, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşı Bəxtiyar Hüseynov və digərləri çıxışlarında tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışıblar. Vurğulanıb ki, Azərbaycan tarixinin bütöv bir dövrü dahi şəxsiyyət Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib və onun zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir.

Bildirilib ki, Azərbaycan müstəqillik qazanandan sonra da ətraf mühitin və ekologiyanın mühafizəsi sahəsində dövlət siyasətinin əsası məhz Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə formalaşmağa başlayıb. Daha sonra diqqətə çatdırılıb ki, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycanda 2024-cü il ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.



Sonda bir qrup partiya fəalına fəxri fərman təqdim olunub.

## “ASAN xidmət” Mərkəzində tədbir



Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Lənkəran regional ”ASAN xidmət” mərkəzinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan tədbir keçirilib.



Əvvəlcə Dövlət Himni səsləndirilib, daha sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən YAP Lənkəran rayon təşkilatının əməkdaşı Böyükağa Axundov bildirib ki, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ərzində böhran həddində olan ölkəmiz dahi şəxsiyyətin fədakar əməyi, böyük zəhməti sayəsində tərəqqiyə doğru inamlı addımlayıb: ”Ulu Öndər Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr edən Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Təsadüfi deyil ki, Ulu Öndərin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Ulu Öndər xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Ulu Öndərin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, milli-mənəvi inkişaf istiqamətində gördüyü işlər bütövlükdə müstəqilliyimizin möhkəmlənməsinə yönəlib”, - deyə B.Axundov qeyd edib.

Lənkəran regional ”ASAN xidmət” YAP ərazi təşkilatının sədr müavini Fariz Quliyev çıxışı zamanı Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini diqqətə çatdırıb: ”Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən və dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi. Heydər Əliyevin hələ sovet Azərbaycanında gördüyü işlər respublikamızın gələcək müstəqilliyinə hesablanmışdı”-deyə F.Quliyev vurğulayıb.

Tədbirin sonunda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.



## “Heydər Əliyev irsi və Azərbaycan gəncliyi”

Yeni Azərbaycan Partiyası (YAP) Lənkəran rayon təşkilatının və Lənkəran - Astara regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə ”Heydər Əliyev irsi və Azərbaycan gəncliyi” mövzusunda tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Lənkəran şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.



Lənkəran şəhər Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev çıxış edərək Ümummilli Lider Heydər Əliyevin gənclərə bağlı siyasətini müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirib. Bildirib ki, bugünkü Azərbaycan gəncliyi sağlam təməl prinsipləri üzərində qurulub. Bu təməl prinsipinin banisi isə Ulu Öndər Heydər Əliyevdir. Onun sözlərinə görə, gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində də həlledici rol oynayıb.

Lənkəran-Astara regional Gənclər və İdman İdarəsinin Rəisi Teymur Babazadə, Lənkəran - Astara regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov, Lənkəran - Astara regional Sosial Xidmətlər Agentliyinin əməkdaşı Orxan Dadaşzadə və gənc fəallar Allahverən Hüseynzadə, Əli Qədirli, Tural Şahbazov Ulu Öndər Heydər Əliyevin gənclərə qayğısından, gənclərin ölkəmizin ictimai-siyasi həyatında, elmimizdə səmərəli rolundan danışıblar.

Tədbirin sonunda bir qrup partiya fəalına təşəkkürnamələr, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı şəhid olan hərbçilərin ailələrinə şəhidlərin ev muzeyinə qoyulmaq üçün xüsusi hazırlanmış saat təqdim edilib.

Sonda xatirə şəkili çəkilib.

# Birinci Qarabağ müharibəsində itkin düşmüş iki şəhidimiz dəfn olunub



Birinci Qarabağ müharibəsində itkin düşmüş iki şəhidimiz dəfn olunub.

Birinci Qarabağ müharibəsində itkin düşmüş və 2024-cü ildə şəxsiyyəti müəyyən olunmuş 73 nəfər Azərbaycan vətəndaşına dair məlumatlar açıqlanıb.

Şəxsiyyətləri müəyyən olunanlar arasında Lənkərandan olan iki şəhidimiz də var. Onlar rayonun Kərgəlan kəndindən Habil Oruc oğlu İsmayılov və Şağlaser kəndindən İbad Musarza oğlu Musayevdir. Hər iki şəhidimizin nəşi Beyləqan rayonunun Şəfəq qəsəbəsində yerləşən "Peyğəmbər" məzarlığında aşkarlanıb.

Məlumat üçün bildirək ki, Habil İsmayılov 26 may 1974-cü ildə Lənkəran rayonunun Kərgəlan kəndində anadan olub. O, 27 yanvar 1994-cü ildə Xocavənd rayonunun Şişqaya yüksəkliyi istiqamətində itkin düşüb. İbad Musayev isə 8 mart 1974-cü ildə Lənkəran rayonunun Şağlaser kəndində anadan olub. 26 yanvar 1994-cü ildə Füzuli rayonunun Əbdürrəhmanlı kəndi istiqamətində itkin düşüb. Mayın 8-də hər iki şəhidimizin nəşi kəndlərinə gətirilib və onlarla vida mərasimi keçirilib.

Vida mərasimində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərin ailə üzvləri və yaxınları, rayon ictimaiyyətinin nümayəndələri, yerli sakinlər iştirak ediblər. Şəhidlərin xatirəsini yad etmək üçün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi orkestrinin ifasında hərbi marş səsləndirilib, daha sonra yaylım atəşi açılıb. Lənkəran ŞİH-nin başçısı Taleh Qaraşov təsəlli olaraq hər iki şəhid ailəsinin üzvlərinə cənazəyə bükülmüş Azərbaycan Respublikasının Dövlət Bayrağını təqdim edib. İcra başçısı bildirib ki, 30 il keçməsinə baxmayaraq, dövlətimiz Birinci Qarabağ müharibəsində itkin düşmüş hər bir vətəndaşın kimliyinin müəyyənləşdirilməsi məsələsinə ciddi yanaşır, bu istiqamətdə bütün mümkün və zəruri addımları atır: "Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi göstərişlərinə uyğun olaraq torpaqlarımızın azadlığı, suverenliyimizin təmin olunması, sərhədlərimizin müdafiəsi uğrunda şəhid olan övladlarımızın xatirəsi daim uca tutulur, şəhid ailələrinin bütün qayğı və problemlərinə həssaslıqla yanaşılır, onların həlli istiqamətində bütün zəruri imkanlar səfərbər edilir",- deyə T.Qaraşov vurğulayıb. Şəhid ailələrinin üzvləri isə bildiriblər ki, 30 il müddətində heç bir xəbər almadan hər gün yolunu gözlədikləri, ziyarət edə biləcəkləri məzarları belə olmayan övladlarının həsrətinə məhz dövlətin gücü sayəsində son qoyulub. "Gözüyaşlı övladımızdan bir xəbər alacağımız ümidi ilə 30 il əzabla yaşamağımız artıq bitdi" deyən şəhid ailələrinin üzvləri bu rahatlığı onlara yaşadan dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını ifadə ediblər. Qeyd edək ki, Birinci Qarabağ müharibəsində Habil Oruc oğlu İsmayılov Xocavənd rayonundakı "Şişqaya" yüksəkliyi, İbad Musarza oğlu Musayev isə Füzuli rayonundakı Əbdürrəhmanlı kəndi istiqamətində itkin düşüblər. Otuz il sonra hər iki şəhidimizin Beyləqan rayonunun Şəfəq qəsəbəsində yerləşən "Peyğəmbərlik" qəbiristanlığında naməlum şəhid kimi dəfn olunduqları aşkarlanıb və kimlikləri müəyyən edilib. Allah rəhmət eləsin.







**"Lənkəran"**

# ANDINA SADİQ GENERAL



Düz 22 il öncə - mayın 15-də Azərbaycan Silahlı Qüvvələrinin korpus komandiri, general-mayor Fikrət Seyfulla oğlu Məmmədov xidməti vəzifəsini yerinə yetirərkən avtomobil qəzasına düşərək faciəli surətdə həlak olub. Həmin gün Vətən özünün cəsur və yenilməz sərkərdələrindən birini itirib. 1961-ci ildə Lənkəran şəhərində dünyaya göz açan F.Məmmədov uşaq yaşlarından babası və atası kimi peşəkar hərbçi olmaq arzusu ilə yaşayıb. Məktəb illərində o, idmanla ciddi məşğul olub, yüngül atletika üzrə keçirilən şəhər birinciliklərində ümidverici nəticələr əldə edib. Şəhər 4 saylı orta məktəbi bitirdikdən sonra 1980-ci ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə qəbul olunub.

1985-ci ilin avqust ayından Əfqanıstan Demokratik Respublikasında desant qırıcı tağım komandiri və desant qırıcı bölük komandiri vəzifələrində xidmət edən F.Məmmədov təhsilini daha sonra Moskvada Frunze adına Hərbi Akademiyada davam etdirib. Hərbi sirlərə bacarıqla yiyələnən gənc komandir 1993-cü ildən müstəqil Azərbaycan Ordusunun tərkibində birbaşa cəbhəyə yollanaraq, azğın düşmənlə ölüm-dirim savaşına qalxıb. N saylı briqadada qərargah rəisi vəzifəsində çalışan F.Məmmədovun cəsurluğu, təşkilatçılıq bacarığı, döyüş keyfiyyətləri nəzərə alınaraq az sonra o, briqada komandiri təyin olunub. 1995-ci ildə

F.Məmmədov artıq Birinci Ordu Korpusunun qərargah rəisi, 1998-ci ilin mayında isə general-mayor rütbəsi verilməklə Üçüncü Ordu Korpusunun komandiri vəzifəsinə təyinat alıb. Döyüşlərdə göstərdiyi mərdlik və şücaətə görə "Qırmızı Ulduz", "Azərbaycan Bayrağı" və digər orden- medallarla təltif olunub.

Tale mənə Fikrətlə bir neçə dəfə görüşməyi nəsib edib. Hər dəfə də onun əsgərlər tərəfindən necə sevildiyinin şahidi olmuşam.

Fikrət Vətənə çox lazım idi. Hərbi sərkərdə olaraq onun ürəyi Milli Ordunun döyüş bacarığını daha yüksəklərə qaldırmaq arzusu ilə çırpınırdı. Əfsus ki, döyüş bacarıqlarının çiçəkləndiyi bir dövrdə - 37 yaşında hərbi andına daim sadıq olan general F.Məmmədovun həyatı yarımçıq qaldı. Lənkəranlılar öz igid həmyerlilərinin xatirəsini daim uca tuturlar. Belə ki, şəhərin mərkəzi küçələrindən birinə general Fikrət Məmmədovun adı verilib. Oxuduğu şəhər 4 saylı orta məktəbin foyesində tunc büstü qoyulub, doğulduğu evə isə xatirə lövhəsi vurulub.

**Ağaddin BABAYEV**

# Şəhidin doğum günü qeyd olunub



Lənkəranın Xarxatan kənd sakinləri Firudin və Lalə Məmmədovların varlıqları əməkdən yoğrulub, amalları qonum-qonşuya, kənd əhalisinə gərəkli olmaq, nümunəvi övladlar yetişdirmək, Vətəni, vətəndaşı sevmək olub. Azərbaycan torpağını Qarabağ müharibəsi zamanı qızıl qanı ilə suvaranlardan biri də bu nümunəvi ailənin igid oğlu Məmməd Məmmədov idi. Məmməd 2 may 1974-cü ildə dünyaya göz açmışdı. Uşaqlıqdan idmanın futbol növünə böyük həvəs göstərirdi. Dəfələrlə mötəbər yarışlarda doğma məktəbin şərəfini qorumuşdu. Mehriban, həlim xasiyyəti olan Məmməd 1992-ci ildə ana Vətənin şərəfini qorumaqdan ötrü həqiqi hərbi xidmətə yola düşdü. O, azğın düşmənlə bir neçə döyüşdə mərdlik və qəhrəmanlıq nümunəsi göstərmişdi. Lakin 9 may 1994-cü ildə Ağdərə istiqamətində gedən ağır döyüşlər zamanı Məmməd itkin düşdü. Atası Firudin kişi, anası Lalə xanım övlad həsrətinə dözməyərək, erkən vəfat etmişlər. İndi Məmmədin itkin düşməsindən nə az, nə çox - düz 30 il keçir. Yaşasaydı, 50 illik yubileyini qeyd edəcəkdi.

Nə yaxşı ki, qədirbilən həmkəndliləri M. Məmmədovun yubileyini onsuz qeyd etməyi qərara alıblar. Bu münasibətlə keçirilən mərasimə yerli ərazi inzibati dairəsinin nümayəndələri, kənd bələdiyyəsinin üzvləri, şəhidin təhsil aldığı Xarxatan kənd tam orta məktəbinin müəllim və şagirdləri, eləcə də kənd sakinləri qatılıblar. Onlar şəhidin adına salınmış xiyabana baş çəkərək onun xatirə lövhəsinin qarşısında təzə-tər çiçəklər düzüb, ruhuna dualar etmişlər. Məktəb şagirdləri şəhidin ruhuna ehtiram olaraq ədəbi-bədii kompozisiya hazırlamış, uşaqlar incə və kövrək ruhlu şeirlər söyləmişlər.



Mərasimdə söylənilən çıxışlarda bu günkü firavan həyat və azadlığımız üçün canından keçmiş Məmməd Məmmədov kimi mərd oğullarımıza daim borclu olduğumuz, onların xatirələrinin əbədi yaşayacağı bəyan edilib.

Şəhidin qardaşı Elnur Məmmədov isə qardaşının əziz xatirəsini yüksək ehtiramla yad edən məktəbin müəllim və şagird heyətinə, həmkəndlilərinə minnətdarlığını çatdırıb.

**Sehran ƏLİYEV**

# Sovet İttifaqında çox nəhəng tikinti olan Baykal-Amur Magistralı Heydər Əliyevin adı ilə bağlıdır




Nəqliyyat infrastrukturu tarixin bütün dövrlərində hər bir dövlət üçün böyük əhəmiyyət daşıyıb. İqtisadiyyatın və ticarətin inkişafı həmişə yolların rəvanlığından asılı olub. Sovet İttifaqı vaxtilə dünyanın ən böyük ölkəsi idi və ərazisi Avropa qitəsindən başlayaraq uzaq Şərqdə bitirdi. Bu böyük əraziyə nəzarət etmək, təhlükəsizliyini təmin etmək, əyalətlərlə mərkəzi birləşdirmək, regionların əlaqəsini yaratmaq və iqtisadi səmərə götürmək üçün Baykal-Amur Magistralı (BAM) kimi dəmir yoluna böyük ehtiyac olub.

Baykal-Amur Magistralı bu günədək dünyada həyata keçirilən ən böyük nəqliyyat layihələrindən biridir. Bu dəmir yolunun tikintisinə ötən əsrin əvvəllərində başlanılıb və demək olar ölkənin bütün ərazisindən keçərək SSRİ kimi nəhəng bir dövlətin Sakit okean sahillərinə çıxışını təmin edib. Sibiri Sovet İttifaqının mərkəzi və Qərb regionları ilə birləşdirən bu dəmir yolunun tikintisi heç də asan olmayıb. Dəmir yolu indiki kimi yeni texnologiyaların, müasir texniki avadanlıq və maşınların



olmadığı zamanlarda, yalnız insan təfəkkürünün və əməyinin gücü ilə inşa edilib. Bu nəhəng infrastrukturun həyata vəsiqə almasında mühüm rol oynayan xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1999-cu ilin iyulunda BAM-ın 25 illiyinin qeyd olunması üçün yaradılmış Təşkilat Komitəsinə yazdığı məktubda bildirmişdi: "Mənim xatirimdə BAM mənən güclü, böyük işlərə qadir insanları birləşdirən bir tikinti kimi qalmışdır. Biz fəxr edirik ki, bu magistralın tikintisində Azərbaycanın bir çox nümayəndələri iştirak etmiş, onlar digər obyektlər sırasında Ulkan şəhərini də salmışlar. BAM tayqa, yolsuzluq və daimi donuşluq şəraitində işləmiş insanların, dostluq və qardaşlıq amallarına sadiq insanların mərdlik və dəyanətinin nümunəsi kimi tarixdə həmişəlik qalacaqdır".

1974-cü ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yenidən BAM-ın tikintisinə başlanıldı və məhz elə texnoloji çətinliklər dəmir yolunun inşasının uzun illər davam etməsinə səbəb oldu. Lakin 1984-cü ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyev sovet dövlətinin magistral boyu 10 günlük səfərə yollanan ilk yüksəkvəzifəli şəxsi idi. Məhz bu səfərdən sonra BAM-ın tikintisində ciddi dönüş yarandı. Moskvaya qayıdan Heydər Əliyev Siyasi Büro üçün geniş məruzə hazırladı. Məruzədə tikintinin sürətləndirilməsi üçün yeni ideya irəli sürərək onun həyata keçməsinə nail oldu.

SSRİ kimi böyük dövlətdə bürokratiyanın bu və ya digər işin görülməsinə necə böyük əngəllər yaratdığı tarixdən məlumdur. Magistral boyu səfər edən Heydər Əliyev Severomuysk tunelinin qazılması zamanı yeraltı çayın üzə çıxdığını öyrənir və dəmir yolunun bu ərazidən yan keçməsi fikrini irəli sürərək hazırladığı məruzədə bunu əsaslandırır. Heydər Əliyev məruzədə nəzərə çatdırır ki, tunelin inşasının davam etdirilməsi dövlətə böyük məbləğdə maliyyə itkisinə başa gələcək və nəticədə dəmir yolunun tikintisi sonu görünməyən vaxtadək uzanacaq. Fitri istedad sahibi olan və uzaqgörən dövlət xadimi Heydər Əliyevin irəli sürdüyü təşəbbüs Siyasi Büroda müzakirəyə çıxarılır, onun haqlı olduğu bildirilir və təklif qəbul edilir.

Dəmir yolunun tikintisi gedən əraziyə 10 gündən çox davam edən ezamiyyəti zamanı Heydər Əliyev rezin çəkmədə qurşağa kimi suyun və palçığın içinə girərək sadə fəhlələrlə görüşür, onlara ruh verirdi. Sovet dönəmində sadə adamların dövlətin yüksək səviyyəli rəhbərləri ilə belə görüşlərinə çox nadir



hallarda rast gəlinirdi. Saatlarla hərbi vertolyotla sahədən-sahəyə baş çəkən Heydər Əliyev səhra şəraitində müşavirələr keçirir, işin gedişinə ciddi nəzarət edir, tövsiyə və tapşırıqlar verirdi.

Qeyd edək ki, Sovet İttifaqı üçün BAM-ın tikintisi çox mühüm əhəmiyyət kəsb edirdi. Sibir və Uzaq Şərqin təbii sərvətlərinin mənisənilməsində, ölkənin istehsal gücünün artırılmasında, dövlətin nəqliyyat arteriyasının dayanmadan işləməsində və ümumilikdə iqtisadiyyatın inkişafında bu dəmir yolu əvəzolunmaz rola malik idi. Heydər Əliyev yolun həm ölkə daxili, həm də beynəlxalq mahiyyətini analiz edərək tikintinin bu ərazilərdə yaşayan əhalinin də sosial vəziyyətinə nə qədər müsbət təsir göstərəcəyini nəzərə alırdı. Təsadüfi deyil ki, 2008-ci ildə BAM-ın 210-cu kilometrliyində yerləşən Anqoy stansiyası yenidən təmir edildi və ona Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verildi. Ulkan və Anqoy qəsəbələrini Heydər Əliyevin azərbaycanlılardan ibarət formalaşdırdığı tikinti briqadaları inşa edib və magistral boyu salınan qəsəbələrdən 2 ay tez təhvil verilib.

Uzunluğu 4324 kilometr olan bu dəmir yolunun tikintisində 2 milyondan artıq insan iştirak edib, 2230 körpü, 8 tunel, 200 dəmir yolu stansiyası inşa olunub. Bu gün Rusiya Federasiyasının iqtisadi inkişafında əhəmiyyətli rol oynayan Sibir və Uzaq Şərqin təbii resursları məhz bu dəmir yolu ilə mərkəzi və Qərbi Rusiyaya, eləcə də xarici dövlətlərə ixrac edilir. Rusiyanın əsas neft-qaz yataqları, meşə və balıqçılıq, heyvandarlıq təsərrüfatları bu magistral boyunca yerləşir ki, bunların da daşınmasında, ixracında, eləcə də yerli xalqların maliyyə və sosial vəziyyətinin inkişafında BAM çox böyük rola malikdir. Bu magistralla ildə təxminən 180 milyon ton yük daşınır.

Rusiyanın vaxtilə insan ayağı dəyməyən, ucu-bucağı görünməyən əyalətlərində BAM hesabına bu gün müasir şəhərlər yaradılıb. Bu yol Rusiyanın tranzit sahəsində də inkişafına böyük təkan verib. Çin, Koreya Respublikası, Vyetnam, Hindistan və digər cənub Şərqi Asiya və Orta Asiya dövlətləri Avropa ilə ticarət əlaqələrini məhz BAM vasitəsi ilə qurublar. Rusiya mətbuatının yazdığına görə, 2030-cu ilədək BAM daha 3,5 min kilometr uzadılacaq, yeni stansiyalar tikiləcək.

Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyevin BAM-ın tikintisindəki rolunu yüksək qiymətləndirən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin deyib: "Sovet İttifaqında çox nəhəng tikinti olan BAM Heydər Əliyevin adı ilə bağlıdır".

**AZƏRTAC**

# CƏSUR GENERALIN EV-MUZEYİNDƏ

## *55 ildə buraya bir milyondan çox qonaq gəlib*



1969-cu il mayın 9-da Azərbaycanın igid oğlu, əfsanəvi sərkərdə, tank qoşunları general-mayoru Həzi Əhəd oğlu Aslanovun ev-muzeyinin açılışı oldu. Lənkəran ictimaiyyəti üçün bu, əsl bayram idi. Yaşlı nəslin nümayəndələri həmin unudulmaz hadisəni bu gün də böyük qürur hissi ilə xatırlayırlar. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev-muzeyinə baş çəkmək, onun şəxsi əşyalarına və hərbi geyiminə baxmaq çoxlarının arzusu idi. İndi həmin vaxtdan düz 55 il keçir. Bu müddət ərzində muzeydə kimlər olmayıb... Nəinki Azərbaycan vətəndaşları, hətta keçmiş sovet respublikalarından, xarici ölkələrdən də gələn qonaqlar burada görkəmli sərkərdənin xatirəsini ehtiramla yad edib, onun şücaəti qarşısında baş əyiblər. Ötən illər ərzində muzeyi ümumilikdə bir milyon yarıma yaxın qonaq ziyarət edib.

Həzi Aslanovun ev-muzeyində 30-dan çox xatirə kitabı saxlanılır. Ziyarətçilər eksponatlara baxarkən onları bürüyən hissləri ifadə edərək təəssüratlarını bu kitablara yazıblar. Maraqlıdır ki, muzeyin açılışı günü xatirə kitabında ilk sözləri Azərbaycanın görkəmli yazıçıları Hüseyn Abbaszadə və Əli Vəliyev yazıb. Yeri gəlmişkən, Hüseyn Abbaszadə Həzi Aslanovun döyüş yolundan bəhs edən "General" romanının müəllifidir.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev-muzeyinə giriş pulsuzdur. Binanın içərisində və həyətdə ideal səliqəsəhman var. Burada hər şey insanda sevinc hissi oyadır. Yamyaşıl bitki örtüyü arasında diqqəti cəlb edən innabi ağacı əraziyə özünəməxsus gözəllik verir. Ağacın dəyəri ondadır ki, onu gələcəyin generalı və qəhrəmanı 8 yaşında öz əlləri ilə əkib. 106 yaşlı innab bu gün çoxsaylı qonaqları əzəmətlə qarşılayır.

İlk əvvəllər muzey yalnız iki otaqda yerləşirdi. Sonradan, daha dəqiq desək 1983-cü ildən eksponatların sayı artdığından muzeyə daha üç otaq əlavə edildi. Hazırda burada 2500-dən çox eksponat toplanmışdır. Bunlardan 450-si orijinal, 2050-si elmi-köməkçi hesab olunur. Eksponatların sayı hər il artır. 2003-cü ildə qəhrəmanın oğlu Arif Aslanov muzeyə 4 orijinal eksponat bağışlayıb. Təkcə ötən il 7 orijinal, 22 elmi və yardımçı eksponat saxlanmaq üçün təhvil verilib.



Muzeyə girəndə insanı sehrli hisslər bürüyür. Fikirləşirsən ki, indi qapılar açılacaq, hansısa otaqdan əfsanəvi general çıxacaq...

Muzeydə hər şey qeyri-adi görünür - generalın gündəlik həyatda istifadə etdiyi əşyalardan tutmuş, cəbhədəki həyatını əks etdirən əşyalara qədər. Sadəcə əllərinlə onlara toxunmaq və cazibədar gücünü bütün varlığınla hiss etmək istəyirsən.

Ev-muzeyin ilk direktoru qəhrəmanın ömür-gün yoldaşı Xavər xanım Aslanova olub. Sonra muzeyin fəaliyyətinə Tamara Fətullayeva rəhbərlik etmişdir. Tamara xanım, demək olar ki, bu mədəniyyət ocağı yaranandan burada işləyib. O, əmək fəaliyyətinə adi işçi kimi başlayıb, direktor vəzifəsinə qədər yüksəlib. Tamara Fətullayeva digər muzey əməkdaşları ilə birlikdə fədakarcasına çalışırdı. Onların hər biri üçün muzey ikinci evə çevrilmişdi. Burada hər bir eksponata xüsusi diqqət və ehtiramla yanaşılır. Bu isə əsl vətənpərvərlik nümunəsi deməkdir. Hazırda muzeyə təcrübəli mədəniyyət işçisi Həcər Nəsirova rəhbərlik edir. Onun sözlərinə görə, hər il əfsanəvi qəhrəmanın ev-muzeyini minlərlə insan ziyarət edir: "Hər il muzeyimizə 25-30 min ziyarətçi baş çəkir. Rusiya və Belarusdan bizə çoxlu qonaqlar gəlir".



Muzeydə generalın şərəfli hərbi və ömür yolunu əks etdirən fotoşəkillər, Həzi Aslanovun görkəmli şəxsiyyətlərlə bağlı xatirələrindən bəhs edən müxtəlif sənəd və materiallar toplanıb. Həcər Nəsirova deyir ki, belə muzeylər gələcək nəsillərin vətənpərvərlik ruhunda böyüməsində rol oynayır: "25 ildən çoxdur ki, bu muzeydə çalışıram. Hər gün buraya gələn tələbələrə və qonaqlara Həzi Aslanovun keçdiyi şərəfli döyüş yolundan danışır, qəhrəmanlığı haqqında geniş məlumat veririk. Generalın geyimi və onunla bağlı sənədlər burada saxlanılır".

Qeyd edək ki, 2010-cu ildə açıq eyvanlı 5 otaqlı muzeydə əsaslı təmir-bərpa işləri aparılıb. Bu gün Həzi Aslanovun ev-muzeyində 2016-cı ilin aprel döyüşlərində həlak olmuş tank ekipajlarından birinin, eləcə də 44 günlük Qarabağ müharibəsində qəhrəmancasına həlak olmuş əsgərin geyim forması da mühafizə olunur.

Onu da bildirək ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci, İkinci Dünya müharibəsində (1941-1945) qələbənin əldə olunmasının 79-cü və iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun 114-cü ildönümü ərəfəsində qəhrəman eloğlumuzun adını daşıyan ev-muzeyinin 55 illiyi qeyd olunub. Müdafiə Nazirliyinin rəsmiləri, rəşadətli Azərbaycan Ordusunun tankçı qəhrəmanları, veteranlar, ictimaiyyət nümayəndələri və Həzi Aslanovun ailə üzvləri əvvəlcə Ulu Öndərimizin Lənkəran şəhərinin mərkəzində ucaldılan abidəsini və əfsanəvi qəhrəmanın Xatirə Parkındakı abidəsi önünə əklil qoyub, qərənfillər düzüb, xatirələrini ehtiramla yad ediblər.



Həzi Aslanovun (22.01.1910-24.01.1945) dünyaya göz açdığı ocaqda davam edən tədbir öncəsi Dövlət himnimiz səsləndirilib, Böyük Vətən müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani II Dünya müharibəsinin igid sərkərdələrindən olan Həzi Aslanovun mənalı həyatı, şərəfli döyüş yolu və qəhrəmanlığı barədə danışıb.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Ülviyyə Əliyeva, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov çıxışlarında qeyd ediblər ki, adı hərb tariximizə qızıl hərflərlə yazılmış, xalqımızın qəhrəman oğlu Həzi Aslanovun döyüş yolunun öyrənilməsi, bu cür tədbirlərin keçirilməsi gənclərimizin vətənpərvər ruhda tərbiyəsində böyük əhəmiyyət daşıyır. Şəhid tank komandiri Yusif Xəlilovun həyat yoldaşı Gülnar Xəlilova, "Azərbaycan Bayrağı" ordenli hərbi qulluqçu İslam Yusublu bu gün Müzəffər Azərbaycan Ordusunda yüzlərlə, minlərlə "Aslanovçular"ın olduğunu iftixarla dilə gətiriblər.



Qəhrəmanın ad və soyadını daşıyan nəvəsi, polis general-mayoru Həzi Aslanov ailə üzvləri adından göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, babası ilə bağlı tədbirlərin həyata keçirilməsində əməyi olan hər kəsə, xüsusilə Müdafiə Nazirliyinin, Lənkəran Şəhər İcra Hakimiyyətinin, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəhbərliyinə və kollektivinə dərin minnətdarlığını bildirib.



Çıxışlarda o da diqqətə çatdırılıb ki, II Dünya müharibəsinin dəmir pələngi Həzi Aslanov davamçılarının- yeni gənc nəslin İkinci Qarabağ savaşında düşmənin başına endirdiyi "Dəmir yumruq" əcdadlarımızın əmanəti, müqəddəs Vətənə layiqli varisliyin, torpağa, yurda məhəbbətin bariz nümunəsidir.

Tədbir zamanı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən mahnılar, səslənən şeirlər iştirakçılara kövrək anlar yaşadıb. Daha sonra ev-muzeyini ziyarət edən tədbir iştirakçılarına buradakı eksponatlar, qəhrəmanın keçdiyi həyat və döyüş yolunu əks etdirən fotosənədlər barədə geniş ətraflı məlumat verilib.

Sonda qonaqlar xatirə kitabına iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş yeganə azərbaycanlı, xalqımızın igid övladı Həzi Aslanov haqqında ürək sözlərini yazıblar.

**Ağaddin BABAYEV**

# İCRA BAŞÇISININ SƏYYAR GÖRÜŞ-QƏBULLARI



### Sütəmurdovda

Aprelin 9-da Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar görüş-qəbulunu Sütəmurdov kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Səyyar görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının, müvafiq təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri də iştirak ediblər. Vətənimizin azadlığı, suverenliyimizin bərpası, müstəqilliyimizin qorunması uğrunda canından keçən qəhrəman övladlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

ŞİH-nin başçısı Taleh Qaraşov səyyar qəbul-görüşün Ramazan bayramı ərəfəsində keçirildiyini vurğulayaraq Sütəmurdov sakinlərinin simasında bütün lənkəranlıları müqəddəs bayram münasibətilə təbrik edib, hər birinə ən səmimi arzu və diləklərini çatdırıb.

Daha sonra Taleh Qaraşov ötən səyyar görüş-qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə sakinlərə məlumat verib. İcra başçısı bildirib ki, dövlət başçısı cənab İlham Əliyevin tapşırığına əsasən yerlərdə keçirilən səyyar görüşlər vətəndaşlar tərəfindən qaldırılan məsələlərə həssaslıqla yanaşılmasına, insanlarla birbaşa dialoqun qurulmasına, qarşılıqlı etimadın gücləndirilməsinə və onları narahat edən məsələlərin həllinə köməklik göstərilməsinə xidmət edir. İcra başçısı səyyar görüş-qəbulda qaldırılan məsələlərin şəxsi nəzarətində olduğunu, bütün müraciətlərə həssas yanaşıldığını qeyd edib. Yerli sakinlər tərəfindən qaldırılan və icra hakimiyyətinin səlahiyyətlərinə aid olan məsələlərin yerindəcə həlli istiqamətində göstərişlər verib, icra hakimiyyətinin səlahiyyətlərinə aid olmayan məsələlərin həlli üçün aidiyyəti qurumlara rəsmi müraciətlərin ünvanlanması və nəticəsi barədə vətəndaşlara məlumat verilməsi səlahiyyətli şəxslərə tapşırılıb. Sütəmurdov kəndinin sakinləri səmimi qəbula görə icra başçısına təşəkkür ediblər. Yerli sakinlər Lənkəranda vətəndaş məmnunluğunun, sosial-iqtisadi inkişafın təmin olunması, abadlıq-quruculuq işlərinin aparılması, yeni yolların salınması və bütövlükdə rayonun iqtisadi və sosial həyatındakı müsbət dəyişikliklərə görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi minnətdarlıqlarını bildiriblər.

### Separadidə



Aprelin 17-dəLənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar görüş-qəbulunu Separadi kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Səyyar görüş-qəbulda icra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri də iştirak ediblər. T.Qaraşov yerli insanlara ötən səyyar qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə məlumat verib. Bildirilib ki, icra hakimiyyətinin səlahiyyətləri çərçivəsində olan və ədalətlə qaldırılan bütün məsələlər həllini tapıb, digər məsələlər barədə isə aidiyyəti yuxarı dövlət orqanlarına rəsmi müraciətlər ünvanlanıb və bu barədə vətəndaşlar məlumatlandırılıblar. Onun sözlərinə görə, səyyar görüş-qəbullar dövlət başçısının göstərişinə uyğun olaraq keçirilir və məqsəd yerlərdə vətəndaşları narahat edən məsələləri öyrənmək, onların həlli mexanizmini müəyyən etmək, bu istiqamətdə aidiyyəti qurumlar qarşısında təkliflər irəli sürmək və məsələ qaldırmaq, nəticə etibarı ilə vətəndaş məmnunluğunun təmin edilməsinə nail olmaqdır. Taleh Qaraşov çıxışında vətəndaşların məşğulluğunun təmin olunması məsələsinə toxunaraq bildirib ki, kəndlərdə vətəndaşların təsərrüfatla məşğul olması üçün bütün imkanlar mövcuddur və dövlət bu məsələdə müxtəlif layihələr həyata keçirir, güzəştlər tətbiq edir.

İcra başçısı yerli sakinlər tərəfindən qaldırılan hər bir məsələni təmkin və səbrlə dinləyib, aidiyyəti üzrə qurumlara tapşırıq və tövsiyələrini verib. Taleh Qaraşov qeyd edib ki, hər bir müraciət onun şəxsi nəzarətindədir və nəticəsi barədə vətəndaşlara qanunvericiliyə uyğun formada və müddətdə cavab veriləcək.

Separadi və Tükəvilə kəndlərinin sakinləri səmimi qəbula görə rayon rəhbərliyinə təşəkkürlərini çatdırıblar. Onlar vətəndaş-məmur münasibətlərindəki məmnunluq səviyyəsinin artdığını, istənilən müraciətlərinə həssas yanaşıldığını vurğulayatraq bütün bunlara görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

### İstisuda



Aprelin 24-də Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı (ŞİH) Taleh Qaraşov təqvim planına uyğun olaraq növbəti səyyar görüş-qəbulunu İstisu qəsəbə inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Görüşdə icra aparatının məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, yerli idarə və təşkilatların nümayəndələri də iştirak ediblər.

Taleh Qaraşov aprelin 19-da rəsmi Bakı ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyasının Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması barədə əldə etdikləri razılıq münasibətilə görüş iştirakçılarının simasında bütün lənkəranlıları təbrik edib. Bildirilib ki, bu, dövlət başçısının diplomatik masadakı növbəti qələbələrindəndir, bütün lənkəranlılar da bu sevincə şərik olur və cənab Prezident İlham Əliyevə təşəkkür edirlər.

Daha sonra ötən görüş-qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə sakinləri məlumatlandıran Taleh Qaraşov səyyar görüşlərdə qaldırılan bütün məsələlərin onun şəxsi nəzarətində olduğunu vurğulayıb. Cənab Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq vətəndaşların müraciətlərinə həssaslıqla yanaşıldığını xatırladan icra başçısı bildirib ki, vətəndaş məmnunluğunun təmin olunması üçün yerli icra hakimiyyətinin kollektivi, eləcə də aidiyyəti idarələr bütün potensial imkanlarından istifadə edirlər. "Bütün vəzifəli şəxslər və dövlət qulluqçuları ilk növbədə vətəndaşları narahat edən məsələlərin aydınlaşdırılmasına, araşdırılmasına, təhlil edilməsinə, həlli yollarını müəyyənləşdirməsinə və nəticə etibarı ilə vətəndaşların məmnunluğunun təmin edilməsinə borcludurlar, bu, həm də dövlət başçısının hər birimizin qarşısında qoyduğu əsas tələblərdəndir",- deyə icra başçısı söyləyib.

Yerli sakinlər çıxışlarında 4 kəndimizin geri qaytarılması barədə əldə olunan razılığa görə cənab Prezident İlham Əliyevə təşəkkür ediblər. Bildirilib ki, xalq-dövlət-hakimiyyət birliyi imkan verir ki, bütün problemlər və çatışmazlıqlar həll olunsun. Yerli insanlar bu yolda daim cənab Prezidentin yanında olduqlarını təkrarlayıblar. qəsəbə sakinləri dövlətin Qarabağda geniş bərpa-quruculuq işlərinin görülməsi, iqtisadi və maliyyə yükünün fonunda regionlarda da geniş həcimli layihələri həyata keçirdiyini ifadə edərək, buna görə dövlətimizin başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya səmimi minnətdarlıqlarını bildiriblər.

### Osakücədə

Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov növbəti səyyar görüş-qəbulunu təqvim planına uyğun olaraq mayın 1-də Osakücə kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. Səyyar görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli idarə və müəssisələrin nümayəndələri də iştirak ediblər. Ötən səyyar görüşdə qaldırılan məsələlərin icra vəziyyəti barədə yerli sakinləri məlumatlandıran Taleh Qaraşov bildirib ki, yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olan və ədalətli qaldırılan bütün məsələlər həllini tapıb, digər məsələlərin həlli üçün aidiyyəti yuxarı qurumlara rəsmi müraciətlər ünvanlanıb və bu barədə vətəndaşlara məlumat verilib.



Bildirilib ki, ötən müddət ərzində aqrar sahədə nəzərə çarpacaq dərəcədə irəliləyiş əldə edilib. Belə ki, ərazidə 100 ton taxıl, 435 kq barama tədarük edilib, 50 ha çay, 100 ha buğda, 12 ha çiyələk və 15 ha sitrus ağacları əkilib. Eyni zamanda Dövlət Proqramına uyğun olaraq dağ relyefinə malik Moloja kəndinin qazlaşdırılması prosesinə paşlanılıb. "Şəhərdən kəndə" layihəsi çərçivəsində ərazidə aqroturizm təsərrüfatının yaradılmasına dəstək verilib: "Bütün bunlar dövlət başçı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rayonumuza olan xüsusi diqqətinin nəticəsidir".

Osakücə kənd inzibati ərazi dairəsinin sakinləri səmimi atmosferdə keçən görüş-qəbula görə razılıqlarını ifadə ediblər. Osakücə, Pambəyi, Tatoba, Sinovli, Moloja və Haftaruon kəndlərinin sakinləri şəxsi və ümumi problemlərini rayon rəhbərliyinə çatdırıblar, onların həlli istiqamətində icra başçısı tərəfindən aidiyyəti üzrə tapşırıq və tövsiyələr verilib. Osakücə kənd inzibati ərazi dairəsinin sakinləri ölkədəki sosial-iqtisadi inkişafı gündəlik həyatlarında hiss etdiklərinə, habelə dağ kəndi olan Moloja kəndinin qazlaşdırılması istiqamətində görülən işlərə görə dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

### Girdənidə



Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov növbəti səyyar qəbul-görüşünü Girdəni kənd inzibati ərazi dairəsinin sakinləri ilə keçirib. İcra hakimiyyəti aparatının, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçilərinin də iştirak etdikləri görüş-qəbulda vətəndaşların maneəsiz, könüllü fikir və istəklərini rayon rəhbərliyinə çatdırmasına tam şəraitin yaradılıb.

Taleh Qaraşov bildirib ki, heç bir vətəndaş müraciəti diqqətdən kənar qalmır və qaldırılan bütün məsələlər onun şəxsi nəzarətindədir. İcra başçısı Prezident İlham Əliyevin xüsusi tapşırığına uyğun olaraq yerlərdə keçirilən səyyar görüş-qəbulların insanların gündəlik qayğı və problemlərinin öyrənilməsi, onları narahat edən məsələlərin yerində araşdırılması, habelə obyektiv qaldırılan məsələlərin ədalətli həllinə nail olunması istiqamətində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Yerli sakinlərin qayğı və problemlərini dinləyən icra başçısı qaldırılan məsələlərin həlli üçün səlahiyyətli şəxslərə tapşırıqlarını verib. Səmimi qəbuldan və qaldırdıqları məsələlərə həssas yanaşmadan razılıqlarını bildirən sakinlər vətəndaş-məmur münasibətlərindən, qayğı və problemlərinin həllinə yönəlmiş çevik addımların atılmasından, sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşmasından məmnun olduqlarını və bütün bunlara görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

**"Lənkəran"**

# MELİORATORLAR SUVARMA MÖVSÜMÜNƏ HAZIRDIR



Su həyat mənbəyidir. Hidrogen və oksigendən ibarət maye olan su hava-dan sonra insan həyatı üçün mühüm əhəmiyyət kəsb edir. Canlıların or-qanizminin 50-70 faizini su təşkil edir. Yemək yemədən həftələrlə yaşamaq mümkündürsə də, susuz bir neçə gün belə yaşamaq mümkün deyil. İnsan orqanizmi sağ-lam qalmaq və yetəri qədər qan ehtiyacını təmin etmək üçün suya ehtiyac duyur.

Son illər Lənkəran rayonunda əkin sahələrinin su-varma suyu ilə təmin edil-məsi, habelə əhalinin iç-məli suya olan tələbatının ödənilməsi sahəsində iri-miqyaslı layihələr həyata keçirilib.

Rayonda əhalinin içməli su ilə təmin edilməsi və əkin sahələrinin suvarıl-ması ilə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti Yuxarı Xanbu-lançay Hidroqovşağı İstis-marı İdarəsi məşğul olur. İdarənin rəisi Allahyar Salayevin sözlərinə görə, Xanbulançay su anbarı 1976-cı il dekabrın 26-da rayonun Bürcəli kəndində Ulu Öndər Heydər Əliyevin iştirakı ilə istismara verilib. İdarənin əsas fəaliyyəti rayon ərazisində və Astara rayonunun bir hissəsi daxil olmaqla, 2000 hektara yaxın suvarma sahəsini su ilə təmin etmək, hid-rotexniki qurğuları, magistral kanalları, nasos stansiyalarını, təsərrüfatarası və təsərrüfatdaxili suvarma kanallarını, qapalı suvarma şəbəkələrini, kollektor-dre-naj şəbəkələrini, xırda sututarların və su anbarların texniki vəziyyətdə saz sax-lanmasına nəzarət etmək, onların əsaslı və cari təmir işlərini həyata keçirməkdir.

Xanbulançay su anbarı-nın ümumi su tutumu 52 milyon kubmetrdir. “Kollek-tivimiz güclü yağışlar zama-nı sel sularının fəsad törət-mədən maneəsiz dənizə axıdılmasını təmin etmək üçün vaxtaşırı olaraq qabaqlayıcı tədbirlər həyata keçirir”, deyə A.Salayev bildirib.

- Vaxtaşırı mövcud kanalları lildən təmizləyir, torpaq hamarlama işləri gö-rür, sahədaxili yolların bər-pasını həyata keçirir, həmçinin kanalların üzərində olan hidrotexniki qurğuları nəzarətdə saxlayırıq”.

İdarə rəisinin sözlərinə görə, cari mövsümdə kol-lektiv qarşısında 9533 hektar əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi vəzifəsi dayanıb. Rayonda üç sudan istifadə birliyi fəaliyyət göstərir və onlar Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsi ilə bağladıqları müqavilə əsasında suyu istehlakçılara çatdırırlar.

Onu da öyrəndik ki, əkin sahələrini və əhalini içməli su ilə təmin etmək məq-sədilə rayonun Cil, Boladi, Şirinsu, Vilvan, Livəsər, Xarxatan, Şovi və digər kəndlərində subartezian quyular qazılaraq istifadəyə verilib.

Bu il həmçinin daha bir neçə yaşayış məntəqəsin-də subartezian quyularının qazılması nəzərdə tutulub. Rayonumuzda may ayından başlayan suvarma mövsü-mü sentyabrın əvvəllərində





bitəcək. Fərdi və fermer təsərrüfatlarının əsas əkin sahələri bostan, tərəvəz, sitrus və giləmeyvə bağları, çəltik, taxıl və çay səhələriindən ibarətdir. Son dövrlər-də rayonda çiyələk sahələ-rinin ərazisi xeyli artıb. Ən çox su tələb edən bitki çəltik olduğundan əsasən çəl-tikçiliklə məşğul olan təsərrüfatçılarla mütəmadi əlaqə saxlanılır, su ehtiyyat-larından qənaətlə istifadə etmələrinə ciddi nəzarət olunur. Bir sözlə, Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsinin meloratorları suvarma mövsümünə tam hazırdır. İdarənin bütün mühəndis və texniki işçiləri təsərrüfatları bol su ilə təmin etməkdən ötrü əlin-dən gələni əsirgəmirlər.

**Ağaddin BABAYEV**

# Kümçülərimizə 210 qutu ipəkqurdu toxumu paylanılıb



Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) dəstəyi ilə Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən 2024-cü il barama mövsümü üçün kümçülərə ipəkqurdu sənaye toxumları paylanılıb.

Dövlət başçısının aqrar sahənin inkişafına göstərdiyi diqqət Lənkəran rayonunda da bu sektorun inkişafına müsbət təsirini göstərib. Belə ki, ötən il Lənkəranda respublika üzrə ən yüksək göstəricilərdən biri kimi 9895.6 kq yaş barama tədarük edilərək təhvil verilib. Cari mövsümdə də baramaçılıq sahəsində qabaqcıl təcrübə və ənənələrə malik kümçülərin müəyyənləşdirilməsi və tut ipəkqurdularının hər qutusundan məhsuldarlığın yüksəldilməsi hesabına barama istehsalının artımına nail olmaq hədəf kimi müəyyən edilib.



Qeyd edək ki, qədim ənənələrə malik, tarix və mədəniyyətimizin bir parçası olan ipəkçiliyin bərpasının kənd əhalisinin rifah halının yaxşılaşdırılmasında və məşğulluğunun təmin olunmasında sosial-iqtisadi məsələ kimi xüsusi əhəmiyyəti var və bunu nəzərə alaraq, barama istehsalının dəstəklənməsi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ”Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib. Lənkəranda barama mövsümü ərəfəsində bütün hazırlıq işləri tamamlanıb, kümxanalar aqrozootexniki tələblərə uyğun hazırlanıb, dezinfeksiya işləri aparılıb, ipəkqurduların düzgün bəslənməsi, xəstəliklərin qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə məhsul istehsalçıları maarifləndirici təlimlərə cəlb olunublar.

Rayonun 1 şəhər, 7 qəsəbə və 33 kəndində 45 kümçüyə ümumilikdə 210 qutu ipəkqurdu sənaye toxumunun paylanılması təmin edilib.

**“Lənkəran”**

# O, ölkəsinə və prezidentinə sadiq idi

(Elegiya)



Milli Məclisin eks-deputatı Hadi Rəcəblinin vaxtsız vəfatı xəbəri mənə xaricdə çatdığından çox hörmətli və əziz bir insanla şəxsən vidalaşa bilmədim.

On beş il parlamentimizin Əmək və sosial siyasət komitəsində Hadi müəllimin rəhbərliyi altında işləmişəm. Bu, Milli Məclisdə ən böyük və ən çox əmək tələb edən komitələrdən biridir, çünki sosial sahə - pensiya, müavinət, müharibə əlillərinin vəziyyəti, əmək və s. cəmiyyətdə ən ağrılı məsələlərdəndir. Ona görə də Hadi müəllim bu və ya digər qanunun hazırlanması, əlavə edilmiş dəyişikliklərin parlamentdən keçməsi üçün çox çalışmalı olurdu. Əminliklə demək olar ki, bu gün müvafiq nazirlik və idarələrin əsasında fəaliyyət göstərən sosial sahədə qanunvericilik paketi daha çox Komitənin rəhbəri Hadi Rəcəblinin xidmətidir. Onun qəbuluna bir gündə 60, 70 və daha çox insan gəlirdi! Bu qəbullar çox çətin idi, çünki gündəlik həyatda narahat olan, bu və ya digər məmurdan incik şəxslər məhz kömək üçün Hadi müəllimin yanına gəlirdilər. O isə bütün diplomatik istedadını və təcrübəsini işə salmalı olurdu ki, insanlar sakitləşsin, məsələ həllini tapsın.

Hadi müəllim ölkəsinə, prezidentinə, üzvü olduğu partiyaya bağlı dövlət xadimi idi. Başqa cür də ola bilməzdi! Çünki Hadi müəllim gənc yaşlarından Lənkəranda məsul vəzifələrdə, daha sonra isə dahi Heydər Əliyevin rəhbərliyi ilə Mərkəzi Komitədə çalışıb. Sevinirəm ki, bir vaxtlar Hadi Rəcəblidən Ümummilli Liderlə işlədiyi illər haqqında müsahibə almışam və bu söhbət mənim "Şəxsiyyət və dövr" çoxcildlik kitabımda yer alıb.

Hadi Rəcəbli rəhbərlik etdiyi Komitənin üzvlərinə çox diqqətcil idi. Hər hansı birimizin ad gününə bir neçə gün qalmış sevimli Lənkəranından toyuq-ləvəngi, balıq sifariş edər, gül və tort alar, süfrə açar, sonra da kabinetində məclis təşkil edərdi. Başqa komitələrin rəhbərləri, sıravi deputatlar da ayaqüstü bizim "tədbirimizə" qatılar, gedəndə isə deyərdilər ki, belə isti, belə rahat mühit heç bir komitədə yoxdur...

Hadi müəllim parlamentə təzəcə üzv seçilmiş və hələ təcrübəsi az olanlara qarşı diqqətcil idi, bilik və təcrübəsini onlardan əsirgəmirdi. O, uzun müddət bu və ya digər qanunun mahiyyətini, əhəmiyyətini izah edə bilirdi ki, sonradan Komitənin dəvət olunmuş qonaqların iştirakı ilə keçirilən iclasında lüzumsuz suallar, fikir ayrılıqları yaranmasın.

Hadi müəllim daim mütaliə edir, öz üzərində çalışır, publisistik və elmi məqalələr, sosial siyasətlə bağlı kitablar, dərsliklər yazırdı. Elmlər doktoru, Dövlət İdarəçilik İnstitutunun professoru idi. Ömrünün sonuna qədər fəal və tələbkar olub, ümidsizlik və bədbinliyə boyun əymirdi. Əslində onun depressiyaya düşməyə heç vaxtı yox idi, çünki çoxsaylı Rəcəbli ailəsinin hər birinə vaxt ayırmalıydı. Hadi müəllim uşaqlarla, xüsusən də nəvələrilə fəxr edir, onlardan tez-tez danışır, fotoşəkillər göstərirdi...

O, parlaq və işıqlı insan idi. Kişi kimi yaşadı, sevdiklərinə əzab vermədən kişi də kimi öldü.

O, mənim yaddaşımda belə qalacaq. Onun üçün çox darıxacağam...

Allah rəhmət eləsin, qəbri nurla dolsun!

**Elmira AXUNDOVA,**
*Azərbaycanın Xalq yazıçısı,*
*2005-2020-ci illərdə Milli*
*Məclisin deputatı*

# Taxıl yığımı zamanı yanğın təhlükəsizliyi tədbirləri

Bu gün taxıl tədarükü iqtisadiyyatımızın ən önəmli sahələrindəndir. Təsadüfi deyildir ki, son dövrlər taxıl tədarükünün artırılması, əhalinin ərzaq təminatı ilə bağlı dövlət başçısı, hökumət tərəfindən mühüm qərarlar qəbul edilmişdir.Taxıl tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrin həllində bu strateji əhəmiyyətli məhsulun yanğın təhlükəsizliyi daima diqqət mərkəzində olmalı, yanğın təhlükəsizliyi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilməlidir.

Birinci növbədə qeyd edilməlidir ki, kənd təsərrüfatı məhsullarının oddan qorunması tək yanğından mühafizə orqanları əməkdaşlarının işi deyil, həm də aqrar sahədə, o cümlədən fermer təsərrüfatında çalışan bütün əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin, sürücülərin və s. ümdə vəzifəsi olmalıdır. Xüsusi olaraq qeyd edək ki, mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Həmçinin ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək təsərrüfat rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla əlaqədar kənd təsərrüfatı işçiləri arasında müvafiq maarifləndirmə işləri aparmalıdırlar.

Taxıl və ot yığımına başlamazdan əvvəl mülkiyyət formasından asılı olmayaraq, bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir şəxs kənd təsərrüfatı texnikasını yanğına qarşı hazırlamalı, ilkin odsöndürmə vasitəsi ilə tam təmin etməlidirlər. Məhsul yığımında iştirak edən texnikanın hamısı işə başlamazdan əvvəl yanğına qarşı texniki müayinədən keçirilməli, onların yanğın təhlükəsizliyi tələblərinə cavab vermələri barədə akt tərtib edildikdən sonra sahəyə buraxılmalıdır. Məhsul yığımında iştirak edən bütün texnikaların, mühərriklərin atqı boruları qığılcım söndürənlərlə təmin edilməlidir. Kollektorların birləşmə hissələrinin və atqı borusunun ara qatlarında zədələnmələr olmamalıdır. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında payız şumlanma işləri aparılarsa, onda şum traktorları mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir. Mühərrikin çıxış kollektoruna küləşli məhsulların düşməsinin qarşısını almaq məqsədi ilə örtüksüz (kapotsuz) və ya örtüyü (kapotu) açıq olan texnikaların istifadəsinə icazə verilməməlidir. Mühərriki akkumlyatorla işə salınan kombayn, traktor və özü hərəkət edən kənd təsərrüfatı texnikalarının akkumlyatorları işlədicilərdən ayıran açarla təmin edilməli, texnikalardakı elektrik naqilləri etibarlı izolyasiya olunmalı, birləşmələri bərkidilməli, eləcə də sürtünmədən və mexaniki zədələnmədən qorunmalıdır. Naqillər gövdə və onun iti künclərindən keçən yerlərdə rezin və yaxud plasmas borularla mühafizə olunmalıdır. Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar adam tərəfindən işə salınması, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınması kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikanın sahələrdə saxlanılması qəti qadağandır.



Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə bir sıra zəruri tədbirlər təxirəsalınmadan həyata keçirilməlidir. Belə ki, meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərti ilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr aralıda tayaya vurulmalıdır. Taxıl yetişən zamanı cavabdeh şəxslər tərəfindən zəmiləri yanğından qorumaq məqsədi ilə xüsusi keşikçilər ayrılmalıdır. Biçilmiş ot və taxıl həmin sahədən kənara daşınmalıdır.

Taxıl yığımı, ot tədarükü zamanı müvəqqəti tarla düşərgələri taxıl zəmilərindən xırmanlardan və s. yanğın təhlükəli yerlərdən ən azı 100 metr kənarda yerləşdirilməlidir. Tarla düşərgələrində, taxıl təmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində "Siqaret çəkmək yeri" yazılmış lövhə asılmalıdır. Digər sahələrdə siqaret çəkmək, açıq oddan istifadə etmək qəti qadağandır. Biçin işi aparılan taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların böyük sahələrə yayılmasının qarşısını almaq məqsədi ilə kotanlı traktorlar olmalıdır. Taxıl zəmilərində və onların yanxınlığında küləş yandırılması və tonqal qalanması qəti qadağandır.Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaq doldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.Yığım maşınlarının diyircəklərinin və digər sürtülən hissələrinin qızmasının qarşısını almaq məqsədi ilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralıda yerləşdirilməlidir.

Xırmanların sahələri bitki örtüyündən (otdan) mütləq təmizlənməli, ətrafı 4 metr enində şumlanmalıdır. Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hamının şərəf işi olmalıdır. Unutmamalıyıq ki, taxıl bərəkətdir, ruzidir və o böyük zəhmət hesabına yetişdirilir.

Elin bu sərvətini yanğından qoruyun!

***Fövqəladə Hallar Nazirliyinin***
***Dövlət Yanğın Nəzarəti Xidmətinin***
***Cənub Regional Dövlət***
***Yanğın Nəzarəti İdarəsi***

# YOLDAŞIMIZIN XATİRƏSİ



Lənkəran ictimaiyyətinə ağır itki üz verib. Rayon ağsaqqallar şurasının fəxri sədri, məşhur nəslin görkəmli nümayəndəsi Kamal Kələntərli aprelin 11-də 102 yaşında vəfat edib.

Kamal İsrafilbəy oğlu Kələntərli 1922-ci ilin iyulun 20-də anadan olub. Lənkəran Pedaqoj Məktəbini bitirdikdən sonra 1941-45-ci odlu-alovlu müharibə illərində Lerik rayonunun ucqar dağ kənd məktəblərində müəllim işləyib. Sonralar Baki Kooperasiya Texnikumunu və Ümumittifaq Kooperasiya İnstitutunun Bakı filialını bitirən K. Kələntərli Lənkəran rayonunun ayrı-ayrı kəndlərində istehlak cəmiyyətlərinin sədri, rayon maliyyə şöbəsində inspektor, dəmiryolu restoranlar birliyinin sədri vəzifələrində çalışıb.

Dövlətçiliyə və xalqına sədaqətlə xidmət edən Kamal Kələntərli 1992-ci ildə təqaüdə çıxdıqdan sonra da ictimai fəaliyyətini davam etdirib, Lənkəran rayon ağsaqqallar şurasının sədri vəzifəsində çalışıb. Xalqa və dövlətə xidmət missiyasını yerinə yetirən el ağsaqqalı Yeni Azərbaycan Partiyasının təbliğat qrupunun üzvü olub. Onun ictimai-siyasi fəaliyyəti dəfələrlə medal, döş nişanı və fəxri fərmanlarla dəyərləndirilib.

Nüfuzlu el ağsaqqalı, mehriban və səmimi insan, sədaqətli dost olan Kamal Kələntərlinin işıqlı xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq. Allah rəhmət eləsin.

**Yoldaşlarından bir qrup**

**İTMİŞDİR**

**Lənkəran Aqrar İslahat Komissiyasının 23 yanvar 1998-ci il tarixli 01 saylı qərarı ilə Hirkan qəsəbə sakini FeyzullayevaTuğra Şahvəli qızının adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (№ 270, KOD 80203016) itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor
Əlimərdan ƏLİYEV

HESAB NÖMRƏMİZ:
AZ30AIIB33010019443860238138
VÖEN 2600244411
Kapital Bankın
Lənkəran filialı
lisenziya № V 343
İndeks: 66920

ÜNVANIMIZ:
Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-jü mərtəbə)
Telefonlar: 255-35-05, 255-35-49
E-mail:
lenkeranqezeti@mail.ru

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur.
Tiraj: 350